A Z Ə R B A Y C A N R E S P U B L İ K A S I

BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

S Ə R Ə N C A M I

№ 20 "23" fevral 2021-ci il

**Xocalı soyqırımının iyirmi doqquzuncu ildönümünün keçirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında**

Xocalı soyqırımının iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının tapşırıq və tövsiyələrinə əsasən və "Yerli İcra Hakimiyyətləri haqqında" Əsasnamənin 4.1.22 və 6.8-ci bəndlərini rəhbər tutaraq

**Qərara alıram:**

**1.** "Binəqədi rayonunda Xocalı soyqırımının iyirmi doqquzuncu ildönümünün keçirilməsi ilə bağlı Tədbirlər Planı" təsdiq edilsin (əlavə olunur).
**2.** Rayon İcra Hakimiyyəti başçısının müavinləri, Aparatın şöbə müdirləri və müvafiq qurumların rəhbərləri tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrası üçün təşkilati hazırlıq işlərini həyata keçirsinlər və icrasını təmin etsinlər.
**3.** Sərəncamın icrasına nəzarət Rayon İcra Hakimiyyəti başçısının müavini Sevinc Süleymanovaya həvalə edilsin.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN

Binəqədi Rayon İcra Hakimiyyəti başçısının
"23" fevral 2021-ci il tarixli
20 saylı Sərəncamı ilə təsdiq edilmişdir

**Xocalı soyqırımının 29-cu ildönümünün keçirilməsi ilə bağlı**

**TƏDBİRLƏR PLANI**

| S/s | Tədbirin adı | Məsul şəxslər | İcra müddəti |
|---|---|---|---|
| 1. | İdarə və təşkilatlarda, mədəniyyət müəssisələrində, ali, orta ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrində Xocalı soyqırımına həsr olunmuş tədbirlərin təşkil edilməsi | İ.Süleymanov<br>V.İsmayılov<br>S.Süleymanova<br>Şöbə müdirləri | fevral 2021-ci il |
| 2. | "Xocalı soyqırımını unutma" mövzusunda inşa və rəsm müsabiqəsi | S.Süleymanova<br>N.Allahverdiyev<br>N.Tarverdiyev<br>Ə.Mustafayev | 24 fevral 2021-ci il |
| 3. | Binəqədi Rayon İcra Hakimiyyəti, C.Cabbarlı adına "İrəvan" DDT, "Xocalı" Soyqırımını Tanıtma ictimai birliyinin birgə təşkilatçılığı ilə "Can Xocalı" adlı onlayn tədbir | V.İsmayılov<br>S.Süleymanova<br>N.Allahverdiyev<br>İ.Piriyev<br>A.Novruzova | 25 fevral 2021-ci il |
| 4. | Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar Xocasən qəsəbəsi ərazisində "613 can" adlı ağacəkmə aksiyasının keçirilməsi | İ.Süleymanov<br>V.İsmayılov<br>S.Süleymanova<br>Şöbə müdirləri<br>T.Abdullayev<br>N.Məmmədova | 26 fevral 2021-ci il |
| 5. | Rayon ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi | İ.Süleymanov<br>V.İsmayılov<br>İ.Cahagir-zadə<br>Y.Hüseynov | 26 fevral 2021-ci il saat:17-00 |
| 6. | Xocalı soyqırımı günü ilə əlaqədar rayon ərazisində dövlət bayraqlarının endirilməsi | İ.Süleymanov<br>V.İsmayılov<br>S.Süleymanova<br>İ.Cahagir-zadə | 26 fevral 2021-ci il |
| 7. | 26 fevral tarixində rayonun təhsil müəssisələrində ilk dərsin Xocalı soyqırımına həsr edilməsi | S.Süleymanova<br>N.Allahverdiyev | 26 fevral 2021-ci il |

| | | | |
|---|---|---|---|
| 8. | Xocalı soyqırımının ildönümü ilə əlaqədar keçirilən tədbirlərin və görülən işlərin KİV-də işıqlandırılması | S.Süleymanova N.Allahverdiyev | fevral 2021-ci il |

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının müavini** **Sevinc Süleymanova**

**İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri** **Nicat Allahverdiyev**